

**Haqqında danışacağım insan musiqimizin beşiyi sayılan Qarabağın sayılıb-seçilən istedadlı tarzənlərindən olub. Son dərəcə ədəbli, yüksək mədəniyyətli, intellektual səviyyəli sənətkar kimi tanınan Məşədi Nərimanın oğlu Aydın Mehrəliyev də bu cəhətdən eynən atasına çəkib.**

# Tarzən Məşədi Nəriman haqqında bildiklərim

Məşədi Nəriman 1958-1993-cü illərdə Üzeyir Hacıbəyov adına musiqi məktəbində dərs deyib. Tanınmış tar ustası muğamı elə incə üsullarla, möcüzəli xallarla ifa edib ki, nəinki sıravi dinləyiciləri, həm də tanınmış sənətkarları belə heyran qoyub.

Vaxtında çoxları çalışıb ki, ondan barmaq oğurlasınlar. Amma bu hər kəsə müyəssər olmayıb. Çünki Məşədi bənzərsiz ifaları ilə seçilirdi. Bununla belə tarzəni dinləmək sənətçilər üçün təsirsiz də ötüşmürdü. İndi çox musiqiçilərin adlarını sadalamaq olar ki, onların hamısı Məşədinin təkrarsız ifalarından bolluca bəhrələniblər. Bu sırada gitara ustası Rafiq Hüseynovun (Rəmiş), tarzən Rafiq Nəcəfovun, İlham Babayevin, Tahir Haqverdiyevin, Eldar Kərimovun, Telman Mehdiyevin onlarla sənətkarın adlarını çəkmək olar.

Məşədi Nərimanın ifasını respublikanın tanınmış tarzənləri Hacı Məmmədov, Əhsən Dadaşov və Həbib Bayramov da dəfələrlə dinləmişlər. Hətta Hacı Məmmədov onu təkrar-təkrar Bakıya dəvət etmişdir. Amma Məşədi hər dəfə yarıciddi-yarızarafat bir cavab vermişdir: "Bakı sizin olsun, Qarabağ mənə bəs edər"...

Beləliklə, ömürlük Qarabağda qalan tarzən zaman-zaman Seyid Şuşinskini, Cabbar Qaryağdıoğlunu, Arif Babayevi, Mütəllim Mütəllimovu, Yaqub Məmmədovu, Qədir Rüstəmovu, Sara Qədimovanı, Şövkət Ələkbərovanı, Vəli Məmmədovu, hətta böyük Bülbülü də müşayiət etmək xoşbəxtliyinə nəsib olmuşdur. Əslində həmin sənətkarlar da Məşədinin onları müşayiət etməsindən çox razı qalmışlar. Tarzən məşhur kaman ustası Habil Əliyevlə Qarabağda nə qədər toy yola vermişdir.

Xoşbəxtlikdən ailədə Məşədi Nərimanın sənətini davam etdirənlər də var. Onlardan tarzənin oğlu Aydın Mehrəliyevin adını çəkmək olar. Aydın müəllim 2 saylı Ağdam musiqi məktəbinin direktorudur. Konservatoriyanın məzunudur. Musiqişünas, tarzən və bəstəkardır.

İndi Aydın müəllimin rəhbərliyi altında gələcəyin məşhur musiqiçiləri təhsil alırlar. Onlara nəcib işlərində uğurlar diləyirik.!

● **Vaqif ALLAHVERDİ**,
***musiqişünas***

